04.10.2025-ci il tarixində Bakı Slavyan Universitetində “Təhsildə Yeni Çağırışlar” VI Beynəlxalq Forumu keçirilib. Forumun təşkilində əsas məqsəd təhsil sahəsində yeni çağırışları müzakirə etmək, hər kəs üçün keyfiyyətli təhsil, xarakter və iradə tərbiyəsi, emosional və süni zəkanın balansı məsələlərinə diqqəti artırmaq, yeni dövrün təhsil tələblərini nəzərdən keçirərək keyfiyyətin daha da yüksəldilməsinə töhfə verməkdir.



**04.10.2025-ci il tarixində Bakı Slavyan Universitetində keçirilmiş "Təhsildə Yeni Çağırışlar" VI Beynəlxalq Forumunda iştirak edən rektor Anar Nağıyevin nitqi**

Çox hörmətli İdris müəllim, çox hörmətli Anar müəllim, hörmətli rektor həmkarlarım, millət vəkilləri, təhsil camiyyəsinin üzvləri, qonaqlar, əziz müəllim həmkarlarım.

Hər birinizi Bakı Slavyan Universitetinin bu möhtəşəm salonunda Azərbaycan müəlliminin peşə bayramı ərəfəsində "Daha təhsilli gələcək" mövzusunda təşkil edilən "Təhsildə yeni çağırışlar" beynəlxalq forumunda salamlayır, hər birinizi peşə bayramımız münasibəti ilə təbrik edirəm. Müasir Azərbaycan təhsilində özünəməxsus müzakirə platforması yaratmış "Təhsildə yeni çağırışlar" forumu müxtəlif yerli və beynəlxalq tərəflərin birgə müzakirəsi əsasında təhsilin gələcəyinə dair diskursumuzun özəyində duran ən böyük müzakirə platformalardan birini təşkil edir. Forum Bakı Slavyan Universiteti ilə T-Network müəllim şəbəkəsinin təşkilatçılığı, ETN, TİF, AETHİ- nın dəstəyi ilə təşkil edilir.

Konfransımız tariximizin ən şəfərli, sevincli səhifələrinin qeyd olunduğu ərəfədə keçirilir.

Müstəqil Azərbaycan dövləti Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi və uzaqgörən siyasəti nəticəsində həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük nailiyyətlər qazanmış, ölkəmiz beynəlxalq ictimayyətin hesablaşacağı dövlətlər sırasına yüksəlmişdir. Xalqımız Vətən müharibəsindəki zəfərimizin beşinci ilini, ərazi bütövlüyümüzün və suverenliyimizin təntənəsini yaşayır. Yeni dövrün Azərbaycanı bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də dövrün çağırışlarına uyğun inkişaf edir. Böyük Qayıdış çərçivəsində işğaldan azad edilmiş tarixi torpaqlarımıza insanlarımızla bərabər təhsilimiz də qayıtmaqdadır.

Ulu öndər Heydər Əliyevin tarixi fəaliyyəti çərçivəsində inkişaf mərhələsinə qədəm qoymuş Azərbaycan təhsili XXİ əsrin ikinci rübünə çağdaş zamanımızın tələbləri kontekstinə uyğun olaraq qədəm qoymaqdadır. Heydər Əliyev Fondu və Fondun rəhbəri, ölkəmizin birinci Vitse Prezidenti Mehriban xanım Əliyevanın təhsilimizin müasir inkişafındakı müstəsna fəaliyyəti xüsusi olaraq qeyd olunmalıdır.

**Hörmətli həmkarlar!**

Azərbaycan təhsilinin inkişafında özünəməxsus yerə malik olan Bakı Slavyan Universiteti uzun illərdir ki, müxtəlif xalqlarla dostluq və mədəni əməkdaşlıq körpüsü rolunu oynayaraq dilçilik, pedaqogika və humanitar elmlər sahəsində mühüm nailiyyətlər qazanmışdır. Yaxın aylarda özünün 80 illik kimi böyük tarixi keçmişini qeyd edəcək ali təhsil müəsissəmiz bu il universitet statusunun yaratdığı qürurun 25-ci ilini qeyd edir. Məhz Ulu öndər Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli Sərəncamı ilə Bakı Slavyan Universiteti profili genişləndirilərək universitet statusu qazanmışdı.

Slavyanşünaslıq üzrə Cənubi Qafqazın birinci universiteti olan ali təhsil müəssisəmizdə alman, ingilis, fransız, ukrayna, belorus, polşa, türk, yunan, rus, çex, özbək, bolqar dilləri öyrədilir. Növbəti tədris illərindən etibarən serb və makedoniya dillərinin tədrisi hədəflənir.

Bakı Slavyan Universiteti öz akademik və tədqiqat arealını genişləndirərək hazırda bir çox istiqamətlər üzrə, xüsusi ilə əsas profilimiz olan slavyanşünaslıqla yanaşı, türkologiya və germanistika üzrə də mühüm öyrənmə mərkəzlərindən birinə çevrilmişdir.

Bununla yanaşı təhsil və pedaqoji ixtisaslar istiqamətində də mühüm nailiyyətlərimiz vardır. Universitetmiz Balkanşünaslıq, İnklüziv və adaptiv təhsil kimi kafedraları vasitəsi ilə akademik və tədqiqat sahəmizin genişləndirilməsini hədəfləyir. İnklüziv və adaptiv təhsil kafedrasının qarşısında qoyulmuş mühüm hədəflər BSU- da tədris edilən bütün fənlərin təhsil proqramının tələblərinə uyğun olaraq XXİ əsr bacarıqlarının, inklüzivlik, müxtəliflik və dayanılqlılıq prinsiplərinin təlim prosesinə tətbiqini təmin etməkdən ibarətdir.

Artıq bir neçə ildir ki, psixologiya və təhsildə sosial-psixoloji xidmət ixtisasları üzrə yülksək qəbul və məmnunluq dinamikasını müşahidə edir, bu istiqamətdə də fəaliyyətimizi genişləndirməyi planlaşdıırıq. BSU-da SABAH qruplarının yaradılması məzmnunun və təlim prosesinin daha effektiv nəticələr əldə etməsinə imkan verəcəkdir.

Daha təhsilli cəmiyyətin formalaşması üçün BSU-nun strateji inkişaf hədəflərinə uyğun olaraq slavyan dilləri və digər müasir dillərin öyrənilməsinin mükəmməllik mərkəzinə çevrilməyi hədəfləyirik. Dillərin müasir texnologiyalar əsasında öyrənilməsi prosesini təmin etmək məqsədi ilə BSU-nun Müəllim İnkişaf Mərkəzində müxtəlif rəqəmsal tətbiqlərin təhsil proqramlarına adaptasiyası prosesi həyata keçirilməkdədir. Yaxın zamanda ölkəmizin ali təhsil məkanında dillərin müasir rəqəmsal həllərin və süni zəkanın imkanlarının tətbiqi vasitəsi ilə öyrənilməsində uğurlu nümunə formalaşdırmağa iddialıyıq. Universitet Elmi Şurasının qərarı ilə fəaliyyətə başlayacaq Müasir Dillər Fakültəsi rəqəmsal və digər müasir texnologiyaların tətbiqini təmin edəcək, dil mərkəzli ixtisasların, xüsusi ilə dilçilik və tərcüməçilikdə yeni rəqəmsal texnologiyaların tətbiqində, Azərbaycan dilli rəqəmsal məzmunun hazırlanmasında yeni bir mərhələ olacaqdır. İnanıram ki, rəqəmsal filologiya və rəqəmsal

pedaqogika ixtisaslarının yaradılması ilə bağlı təkliflərin də ETN-ə təqdim edilməsi yaxın gələcəkdə mümkün olacaqdır.

BSU inklüziv təhsil və təhsildə inklüzivlik üzrə qabaqcıl təcrübələrdən birini formalaşdırmağı hədəfləməklə, təhsilin bütün pillələri üzrə fəaliyyətini təşkil etmiş, 2022-ci ildən etibarən həyata keçirdiyi "İnklüziv təhsildən inklüizv cəmiyyətə" layihəsi çərçivəsində müxtəlif ali təhsil müəssisələri və ümumitəhsil müəssisələrinin əməkdaşlarının daxil olduğu böyük bir öyrənmə və əməkdaşlıq platforması qurmuşdur. Ölkəmizin müxtəlif regionlarında çalışan onlarla müəllim və məktəb direktorları BSU-nun inklüziv təlim inkişaf proqramlarının benefisiarları olmuş, yüzlərlə orta məktəb müəllimləri, psixoloqları, direktoları, o cümlədən ali təhsil müəssisələrindən olan həmkarlarımız, BSU- nun "inklüziv təhsilə doğru növbəti addım" regional dəyirmi masalarının fəal iştirakçıları olmuşdurlar. Hədəfimiz öyrənmə və inkiaşf üçün daha geniş əməkdaşlıqların və şəbəkələşmənin qurulmasından ibarətdir.

Ali təhsil müəssisələrinin ömürboyu öyrənmə konsepsiyasının tərkib hissəsi olaraq müxtəlif pedaqoji istiqaməıtlər üzrə təlim inkişaf proqramları həyata keçirir, BSU-nun təlim coğrafiyası Naxçıvan, Bakı şəhəri və Gəncə-Daşkəsən RTİ əhatə edir. Oktyabr ayında isə Bakı şəhərində fəaliyyət göstərən 15 inklüziv sinifin müəllimləri, həmçinin Quba-Xaçmaz RTİ-də çalışan ibtidai sinif müəllimləri üçün təlimlərin təşkili planlaşdırılmışdır.

Bu gün bu zalda yer almış BŞTİ-nin məktəb direktorları sırasında BSU-nun "müəllim və kadr potensialının inkişafı" üçün mühüm əməkdaşlıq və şəbəkələşmə platformalarından biri olan "Universitet-məktəb kordinasiyası" komandasının üzvləri də vardır. Paytaxtımızın 20-dək məktəbinin direktoru ilə qurulmuş mütəmadi kordinasiya fəaliyyəti əmək bazarının tələblərinin öyrənilməsi və təhsil prosesinin daha səmərəli qurulması, eləcə də orta məktəblərin potensialının gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, qabaqcıl

beynəlxalq təhsil imkanları, İB və digər təhsil proqrmaları əsasında çalışan orta məktəblər üçün müəllim hazırlığına dəstək olmaq məqsədi ilə BSU Bakıda yerləşən beynəlxalq məktəblərin iştirakı ilə “müasir şagird hazırlığı” layihəsini uğurla həyata keçirmişdir.

Müasir dövrün idarəetmə tələblərinə uyğun olaraq “rəqəmsal BSU” layihəsi 2023-cü ildən mərhələli şəkildə tətbiq olunmaqla, cari tədris ilindən akademik prosesi tam əhatə etməyə başlamışdır.

Qeyd etməliyəm ki, son 4 il ərzində ali təhsilin bakalaviatura səviyyəsi üzrə 9 yeni ixtisas, magistratura səviyyəsi üzrə isə ali təhsilin idarə olunması, menecment, ixtisası yaradılmışdır. Hazırda ETN-ə ali təhsilin bakalavriatura səviyyəsi üzrə təsnifata salınması üçün yeni ixtisaslar, o cümlədən tərcüməçilik və regionşünaslıq ixtisaslarının yeni layihələri hazırlanmaqdadır.

Fürsətdən istifadə edərək, fəaliyyətimizin təşkilində davamlı dəstək göstərdiyi üçün, başda cənab nazir Emin Əmrullayev olmaqla, Elm və təhsil nazirliyinə öz dərin təşəkkürümü bildirirəm.

Vurğulamaq istərdim ki, 2025-ci ilin sentyabrından etibarən BSU-nun rəqabətədavamlılığının gücləndirilməsinə xidmət edəcək “Dayanıqlı inkişaf naminə potensialın gücləndirilməsi” layihəsinə start verilmişdir. Layihə çərçivəsində keyfiyyət təminatı, elmi tədqiqat, insan resursları, karyera xidməti və digərləri olmaqla ümumilikdə yeddi komponent üzrə potensialın gücləndirilməsi, 2026-cı il ərzində təxminən 500 nəfər əməkdaşa təlimlərin təşkili nəzərdə tutulur.

**Hörmətli həmkarlar!**

BSU-nun əsas məramları sırasındakı Azərbaycan dili və mədəniyyətinin qorunması və təbliği mühüm yer tutur. Bu məqsədlə, xarici ölkələrdə yerləşən Azərbaycan dili və mədəniyyəti mərkəzlərimiz vasitəsi ilə Azərbaycan dili, mədəniyyəti, ədəbiyyatının öyrənilməsi əsas hədəfdir. Bu tədris ilindən Ukrayna və Belorusda azərbaycan dilinin daha dərindən tədrisinə dəstək vermək məqsədi ilə həmkarlarım tərəfindən hər iki dilin daşıyıcıları üçün Azərbaycan dili dərslikləri hazırlanmışdır. Bu dərsliklər hazırıda XI kitab sərgisində təqdim edilir. Eyni layihə üzrə digər dillər üçün də Azərbaycan dili dərsliklərinin hazırlanması prosesi davam etməkdədir. 2026-cı ilin yayından isə əcnəbilər üçün beynəlxalq Azərbaycan dili və mədəniyyəti yay məktəbinə start verməyi hədəfləmişik.

“Konsitutsiya və suverenlik” ili çərçivəsində yerli və xarici tələbələrin iştirakı müxtəlif seminar və mühazirlər, o cümlədən ölkəmizin 7 regionunda 2000 nəfərdən çox yuxarı sinif şagirdinin iştirakı ilə “Yeni dövrün Azərbaycanı” mövzusunda rektorun şagirdlərlə görüşünü təşkil etmiş, Bolqarıstan və Albainiyanın ali təhsil müəssisələrində təhsil alan ümumilkdə 200 nəfərdən çox tələbə, professor-müəllim heyəti üçün “Azərbaycan regional lider və etibarlı tərəfdaş” mövzusunda mühazirələr oxumuşuq.

Sonda, BSU-nun RDİ- YTM Mərkəzi tərəfindən təşkil edilən tədqiqat və tədqiqatların stimullaşdırılması prosesini qeyd edərək, BSU konfranslarının mühüm diskurs ünvanına çevrildiyini, “Yeni dövrün Azərbaycanı”, “İnklüziv təhsildən inklüziv cəmiyyətə”, “Bakı Beynəxalq Balkanşünaslıq” konfranslarının artıq mühüm ənənələrimizdən biri olduğunu, Qərbi Azərbaycan üzrə tədqiqatların arealının daha da genişləndiyini və bu istiqamət üzrə BSU-da ETL mövcud olduğunu vurğulamağı vacib hesab edir, ötən il birincisini təşkil etdiyimiz və

növbəti il davam etdirməyi planlaşdırdığımız “Müasir dillər” Konfransının da mühüm tədqiqat platforması yaradacağına və yaxşı ənənəyə çevriləcəyinə əminəm.

**Hörmətli həmkarlar!**

“Mən müəllim adından yüksək ad tanımıram” deyən Ulu Öndər Heydər Əliyev və onun siyasətinin layiqli davamçısı, “Torpqalarımızı düşmən tapdağından azad edən gənc nəslin vətənpərvər ruhda tərbiyəsində müəllimin əvəzedilməz rolu vardır” deyən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Azərbaycan müəlliminə verdiyi qiymət və dəyər hər birimizi ruhlandırır, Millətin gələcəyi olan təhsilin inkişafında, daha təhsilli və vətənpərvər Azərbaycan vətəndaşlarının yetişdirilməsi işində hər birimizin qarşısında daha böyük məsuliyyət qoyur.

Hər birinizi bir daha Bakı Slavyan Universitetində salamlayır, qarşıdan gələn peşə bayramı münasibəti ilə təbrik edir və daha təhsilli gələcək naminə uğurlar arzu edirəm.

**Sağ olun!**